Əlixan Musayev

# Yeddi möhtəşəm zikr

**Redaksiya heyəti:**

Ə. Musayev
M. Qarayev
A. Salehli
F. Allahverdiyev
E. Rüstəmov

**Qeyd:** Kitabda istifadə edilən ərəbcə dua-ifadələrin oxunuşu və tərcüməsi aşağıdakı kimidir:

ﷺ – *sallallahu aleyhi və səlləm* – ona Allahın salavatı və salamı olsun!

عليه السلام – *aleyhissəlam* – ona salam olsun!

عليهم السلام – *aleyhimussəlam* – onlara salam olsun!

رضي الله عنه – *radıyallahu anhu* – Allah ondan razı olsun!

رضي الله عنها – *radıyallahu anhə* – Allah ondan razı olsun! (qadın üçün)

رضي الله عنهما – *radıyallahu anhumə* – Allah hər ikisindən razı olsun!

رحمه الله – *rahiməhullah* – Allah ona rəhmət eləsin!

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

# Müqəddimə

Həqiqətən, həmd Allaha məxsusdur! Biz Ona şükür edir, Onu tərifləyir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət versə, o, haqq yolunda olar, kimi də sapdırsa, onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və rəsuludur.

Şübhəsiz, ən xeyirli kəlam Allahın Kəlamı, ən doğru yol isə Muhəmmədin ﷺ yoludur. Habelə, ən pis əməl *dinə əlavə*

*edilən* yeniliklərdir. Hər bir yenilik bidət, hər bir bidət zəlalət və hər bir zəlalət də Cəhənnəmə aparan yoldur.

Möhtərəm müsəlmanlar!

Bu kitabda Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi yeddi zikrin fəzilətindən bəhs edilir. Bu zikrlərin hər biri mömin insana olduqca böyük savab qazandırır. Zikrlərdən ən fəzilətlisi Allahın mübarək Kitabıdır. Bu xüsusda Quranda belə buyurulur:

**“Bu, nazil etdiyimiz mübarək bir Zikrdir.”**[1]

**“Şübhəsiz ki, Zikri Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq.”**[2]

**“Sənə Zikri nazil etdik ki, insanlara nazil olan *hökmləri* onlara izah edəsən. Bəlkə onlar fikirləşələr.”**[3]

---

[1] “əl-Ənbiya” surəsi, 50.

[2] “əl-Hicr” surəsi, 9.

[3] “ən-Nəhl” surəsi, 44.

Diqqət edin! Bu ayələrdə uca Allah Quranı "Zikr" adlandırır. "Zikr" bu mübarək Kitabın adlarından biridir.

Bu mübarək Kitabı oxuduqca qəlblər rahatlıq tapır: **"Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır."**[1]

Fani dünyaya bağlandıqca isə, əksinə, qəlb sıxılır, çünki fani dünya lənətlənmişdir. Bu xüsusda rəvayət edilmiş hədisdə Rəsulullah ﷺ buyurur: "Allahı zikr etmək, Onun sevdiyi əməllər, habelə, elm öyrədən və elm öyrənən şəxs istisna olmaqla, dünya və onun üzərindəkilər lənətlənmişdir."[2]

İbn Rəcəb رحمه الله bu hədisi belə izah edir: "Dünya və onun üzərindəkilər lənətlənmişdir, yəni insanı Allahı zikr etməkdən yayındırır. Allaha tərəf yönəldən, Onu tanıtdıran, Ona yaxınlaşdıran və Onun

[1] "ər-Rəd" surəsi, 28.

[2] Sunən ət-Tirmizi, 2323; Silsilə əl-Əhadis əs-Səhihə, 2797.

razılığını qazandıran faydalı elmi öyrənmək və öyrətmək, Allahı zikr etmək və Allahın sevdiyi başqa əməlləri yerinə yetirmək isə istisnadır. Dünyadan məhz bu məqsədlə istifadə etmək olar."[1]

İbn Qeyyim ﷫ demişdir: "Allahın elçisi ﷺ Allahı zikr etmək xüsusunda yaradılanların ən kamili idi. Onun hər sözü, ümmətinə buyurduğu əmrlər və qadağalar, Allahın ad və sifətləri, Onun verdiyi hökmlər və gördüyü işlər, vədləri və təhdidləri barədə xəbər verməsi, Allahı tərifləməsi, Onun şənini uca tutması, Ona həmd etməsi, Onun pak və müqəddəs olduğunu təsdiqləməsi, Ona yalvarması və Ona dua etməsi, Ondan qorxması və Onun mərhəmətinə ümid bəsləməsi yalnız Allahı zikr etmək və Onun rizasını qazanmaq üçün olmuşdur. Hətta onun susmağı belə, qəlbən Allahı

---

[1] Camiul-Ulum vəl-Hikəm, 1/298.

zikr etməsinə aiddir. Rəsulullah ﷺ hər zaman və hər bir halda – ayaq üstə, oturduğu halda, uzanmış vəziyyətdə, yol gedəndə, minik üstündə, səfərdə olanda, qonaq qaldığı yerdə və öz evində davamlı olaraq Allahı zikr edərdi."[1]

Allahı zikr etmək hər bir müsəlmana vacibdir və bu xüsusda Quranda belə buyurulur:

**"Ey iman gətirənlər! Allahı çox zikr edin! Səhər-axşam Onun şəninə təriflər deyin!"[2]**

**"Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini zikr et və qafillərdən olma."[3]**

**"Siz Məni yad edin ki, Mən də sizi yad edim!"[4]**

---

[1] Zadul-Məad fi Hədyi Xayril-İbad, 2/332.

[2] "əl-Əhzab" surəsi, 41-42.

[3] "əl-Əraf" surəsi, 205.

[4] "əl-Bəqərə" surəsi, 152.

Peyğəmbər ﷺ isə belə buyurmuşdur: "Çalış, dilin daim Allahı zikr etməklə islaq qalsın!"[1]

Bu kitabda haqqında bəhs edilən digər altı zikr isə aşağıdakılardır:

– (( لاَ إِلَه إلاَّ الله ))

– (( لاَ إِلَهَ إِلاَّ اللَّهُ، سُبْحَانَ اللَّهِ، الْحَمْدُ لِلَّهِ، اللَّهُ أَكْبَرُ ))

– (( لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِالله ))

– (( سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ ))

– (( أَسْتَغْفِرُ اللهَ وَأَتُوبُ إِلَيْهِ ))

– (( اللَّهُمَّ صَلِّ وَسَلِّمْ عَلَى نَبِيِّنَا مُحَمَّدٍ ))

---

[1] Musnəd İmam Əhməd, 4/190; Səhih əl-Cami, 7700.

# Qurani Kərim

Əvvəlki peyğəmbərlərin möcüzələrinə – Musanın عليه السلام əsa ilə dənizi yarmasına, İsanın عليه السلام ölüləri diriltməsinə və digər möcüzələrə yalnız onlarla eyni zamanda yaşamış bir qrup insan şahid olmuşdur. Muhəmməd peyğəmbərin ﷺ möcüzəsi isə Qiyamətədək qalacaq Qurandır. Bu xüsusda Rəsulullah ﷺ demişdir: "Peyğəmbərlər arasında elə birisi olmamışdır ki, ona bəşəriyyətin inandığı peyğəmbərlik dəlillərindən verilmiş olmasın. Mənə verilmiş dəlil isə Qurandır."[1]

Bu mübarək Kitabın nə dərəcədə fəzilətli bir Kitab olduğu isə aşağıdakı ayə və hədislərdə öz təsdiqini tapmışdır:

[1] Səhih Muslim, 385.

Uca Allah buyurur: **"Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır."**[1]

**«De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün toplaşıb bir-birinə kömək etsələr belə, ona bənzərini gətirə bilməzlər."»**[2]

**"Həqiqətən, bu *Quran, haqqı batildən* ayırd edən bir kəlamdır."**[3]

**"Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır."**[4]

**"Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik."**[5]

Hədislərdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur:

---

[1] "əl-Bəqərə" surəsi, 2.
[2] "əl-İsra" surəsi, 88.
[3] "ət-Tariq" surəsi, 13.
[4] "əl-Ənam" surəsi, 155.
[5] "ən-Nəhl" surəsi, 89.

“Quran oxuyun! Çünki Qiyamət günü o gəlib, özününkülərin[1] tərəfini saxlayacaq. Çiçəklənən “əl-Bəqərə” və “Ali-İmran” surələrini oxuyun! Çünki Qiyamət günü onlar iki bulud və ya cərgələrə düzülmüş iki qatar quş kimi gəlib özününkülərin tərəfini saxlayacaq. “əl-Bəqərə” surəsini oxuyun! Çünki onda xeyir-bərəkət, onsuz qalmaqda isə peşmanlıq var, həm də sehrbazlar onunla bacara bilməzlər.”[2]

“Quranı öyrənin! Bu Kitabı öyrəndikdən sonra onda ifrata varmayın, ona laqeyd yanaşmayın, onun sayəsində pul qazanmayın, onun sayəsində mal-dövlətinizi artırmayın!”[3]

“Allahın Kitabını öyrənin, içərisində buyurulanlara əməl edin və onu avazla oxuyun! Muhəmmədin canı əlində olan

---

[1] Yəni onu oxuyub, içərisində buyurulanlara əməl edən möminlərin.

[2] Səhih Muslim, 1910.

[3] Sunən ən-Nəsai, 990; Silsilə əl-Əhadis əs-Səhihə, 3057.

*Allaha* and olsun ki, bu Quran, sahibini ipindən açılmış və sahibindən qaçmış dəvədən daha tez tərk edər."[1]

"Bu Quran bir ipdir. Onun bir ucu Allahın əlində, digəri də sizin əlinizdədir. Ondan möhkəm yapışın. Şübhəsiz ki, ondan sonra heç vaxt zəlalətə düşməz və əsla həlak olmazsınız."[2]

"Quran sənin ya lehinə, ya da əleyhinə bir hüccətdir.[3]"[4]

"*Hər hansı* bir camaat məsciddə yığışıb Allahın Kitabını oxusa və onu bir-birinə öyrətsə, onların üzərinə sükunət nazil olar,

---

[1] Musnəd İmam Əhməd, 4/150; Silsilə əl-Əhadis əs-Səhihə, 3285.

[2] Səhih İbn Hibban, 122; Silsilə əl-Əhadis əs-Səhihə, 713.

[3] "Mömin bəndə Quranın buyurduqlarına əməl edib qadağan etdiklərindən çəkinsə, qəbirdə sorğu-sual edildiyi, məhşər günü haqq-ədalət tərəziləri qoyulduğu və Allahın hüzuruna gətirildiyi zaman Quran onun lehinə, əks halda isə, əleyhinə şahidlik edər". (Şərh ən-Nəvəvi).

[4] Səhih Muslim, 223.

rəhmət onları bürüyər, mələklər öz qanadları ilə onları əhatəyə alar və Allah onları Öz yanındakıların arasında yad edər."[1]

"Allah bu Kitab sayəsində insanların bir qismini ucaldır, digərlərini isə alçaldır."[2]

"Qiyamət günü Quran onu oxuyan adam üçün: "Ey Rəbbim, ona bəzək ver!"– deyəcək və dərhal həmin adamın başına kəramət tacı qoyulacaq. Sonra o: "Ey Rəbbim, onun bəzəyini artır!"– deyəcək, ona kəramət əbası geyindiriləcək. Sonra o: "Ey Rəbbim, ondan razı qal!"– deyəcək və Rəbbi ondan razı qalacaq. Sonra ona belə buyurulacaq: "Oxu, yüksəl! Hər bir ayəyə görə sənin gözəlliyin artacaq!"[3]

"Quran oxuyan və onu əzbər bilən adam möhtərəm və müti mələklərlə eyni dərəcədədir. Çətinlik çəkə-çəkə daim

---

[1] Səhih Muslim, 8/71.

[2] Səhih Muslim, 1934.

[3] Sunən ət-Tirmizi, 2915; Səhih əl-Cami, 8030.

Quran oxuyan adam isə ikiqat savab qazanır."[1]

"Quran oxuyan və ona əməl edən mömin portağala bənzəyir – onun dadı da xoşdur, iyi də. Quran oxumayan, amma ona əməl edən mömin xurmaya bənzəyir – onun dadı gözəldir, lakin iyi yoxdur. Quran oxuyan münafiqin məsəli reyhana bənzəyir – onun iyi gözəl olsa da, dadı acıdır. Quran oxumayan münafiqin məsəli acı qovuna bənzəyir – onun iyi xoşagəlməz, dadı da acıdır."[2]

"Kim Allahın Kitabından bir hərf oxusa, buna görə on savab qazanar. Mən demirəm ki, "əlif, ləm, mim" bir hərfdir, [*əksinə,*] "əlif" bir hərf, "ləm" bir hərf, "mim" də bir hərfdir."[3]

"Niyə sizdən biriniz məscidə gedib Allahın Kitabından iki ayə oxumur ki,

---

[1] Səhih əl-Buxari, 4937; Səhih Muslim, 797.

[2] Səhih əl-Buxari, 5059.

[3] Sunən ət-Tirmizi, 2910; Səhih əl-Cami, 6469.

bu onun üçün iki dəvə sədəqə verməkdən[1] daha xeyirli olsun. Üç *ayə* onun üçün üç *dəvədən*, dörd *ayə* də dörd *dəvədən* daha xeyirlidir. Bunların sayı artdıqca, savabı da artmış olar."[2]

"Sizin ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir."[3]

"Kim bir gecədə yüz ayə oxuyarsa, itaətkarlardan hesab olunar."[4]

"İnsanlar arasında Allahın əzizləri vardır." Səhabələr soruşdular: "Kimlərdir onlar, ya Rəsulullah?" O dedi: "Quran əhli[5]. Onlar Allahın əzizləri və Onun ən yaxınlarıdır."[6]

---

[1] Yəni iki dəvə sədəqə verməkdən.

[2] Səhih Muslim, 2/197.

[3] Səhih əl-Buxari, 5027.

[4] Səhih İbn Xuzeymə, 1793; Silsilə əl-Əhadis əs-Səhihə, 643.

[5] Yəni Quran oxuyan və onun tələblərini yerinə yetirənlər.

[6] Musnəd İmam Əhməd, 1/556; Silsilə əl-Əhadis əs-Səhihə, 1582.

Bir zaman Peyğəmbər ﷺ Əbu Səid əl-Xudriyə رضي الله عنه belə buyurmuşdur: “Sənə Allahı zikr etməyi və Quran oxumağı tövsiyə edirəm, çünki bu, göydə sənin üçün bir rahatlıq, yerdə də adının təriflə zikr olunması üçün bir səbəbdir.”[1]

---

[1] Musnəd İmam Əhməd, 3/82; Silsilə əl-Əhadis əs-Səhihə, 555.

# Lə ilahə illəllah

Allahın Kitabından sonra ən fəzilətli zikr peyğəmbərlərin ﷺ hamısının təbliğ etdiyi

(( لاَ إِلَه إلاَّ الله ))

"Lə ilahə illəllah!"[1] kəlməsidir.

Bu, peyğəmbərlərin ﷺ dəvətinin tək qayəsi, tərəzidə savabı ən ağır gələn, günahları silən, mömini səadətə qovuşduran və şeytandan qoruyan, onu Cəhənnəmdən

---

[1] Tərcüməsi: Allahdan başqa *haqq* məbud yoxdur.

Bu ifadədə "haqq" sözünün deyilməsi mütləqdir. Sadəcə "Allahdan başqa məbud yoxdur!" demək yanlışdır, çünki Allahdan başqa batil məbudlar çoxdur, ibadətə layiq olan haqq məbud isə Tək olan, heç bir şəriki olmayan Allahdır. Bu xüsusda Quranda belə buyurulur: **"Allah Haqdır. *Kafirlərin* Ondan başqa yalvardıqları *bütlər* isə batildir. Həqiqətən, Allah ucadır, böyükdür."** ("əl-Həcc" surəsi, 62).

uzaqlaşdıran və Cənnətə daxil edən tövhid kəlməsidir. Bu zikrin fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur:

“Ən fəzilətli zikr “Lə ilahə illəllah!”, ən fəzilətli dua isə “Əlhəmdulilləh”[1]-dir.”[2]

“İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunun ən üstünü “Lə ilahə illəllah!” kəlməsidir...”[3]

“Kim “Lə ilahə illəllah!” desə və Allahdan qeyrisinə ibadət etməyi inkar etsə, onun malı və canı toxunulmaz olar. *Gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir.”[4]

“Kim “Lə ilahə illəllah!” desə, Cənnətə daxil olar.”[5]

[1] Tərcüməsi: Həmd Allaha məxsusdur!

[2] Sunən ət-Tirmizi, 3680; Silsilə əl-Əhadis əs-Səhihə, 1497.

[3] Səhih Muslim, 153.

[4] Səhih Muslim, 130.

[5] Səhih İbn Hibban, 151; Silsilə əl-Əhadis əs-Səhihə, 2355.

“Allahın rizasını diləyərək “Lə ilahə illəllah!” deyən kimsəyə Qiyamət günü Allah Cəhənnəm odunu haram edər.”[1]

“Kim sübh namazından sonra yüz dəfə “Subhanəllah!”[2], yüz dəfə də “Lə ilahə illəllah!” desə, onun günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanar.”[3]

“Allahın peyğəmbəri Nuh عليه السلام ölüm ayağında ikən oğluna belə vəsiyyət etmişdir: – Sənə “Lə ilahə illəllah”ı əmr edirəm. Əgər yeddi göy və yeddi yer tərəzinin bir gözünə, “Lə ilahə illəllah” isə digər gözünə qoyulsa, bu kəlmə onlardan ağır gələr...”[4]

Rəsulullah ﷺ həmçinin demişdir: “Ümmətimdən olan bir kişi Qiyamət günü məxluqatın qarşısına çağırılacaq və ona

---

[1] Səhih əl-Buxari, 6423.

[2] Tərcüməsi: Allah pak və müqəddəsdir!

[3] Səhih ən-Nəsai, 1354.

[4] Musnəd İmam Əhməd, 1/169-170; Silsilə əl-Əhadis əs-Səhihə, 134.

içində əməlləri yazılmış doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın ölçüsü gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra uca Allah buyuracaq: "Bunlardan hər hansı birini inkar edə bilərsənmi?" O: "Xeyr, ey Rəbbim!"– deyə cavab verəcək. Allah buyuracaq: "*Əməlləri* yazan gözətçi mələklərim sənə zülm etmişlərmi? Bu qədər günah qarşısında sənin savabın ola bilərmi?" O, qorxu içində: "Xeyr!"– deyə cavab verəcək. Allah buyuracaq: "Əksinə, yanımızda sənin üçün savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək." Bu vaxt onun qarşısına üzərinə "Əşhədu ən lə ilahə illəllah və ənnə Muhəmmədən abduhu və rəsuluh!"[1] yazılmış bir kağız parçası qoyulacaq. O deyəcək: "Ey Rəbbim! Bu qədər kitabın qarşısında bu

[1] Tərcüməsi: Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur və Muhəmməd Onun qulu və elçisidir.

kağız parçası nə fayda verə bilər ki?" Allah buyuracaq: "Sənə zülm olunmayacaq!" Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq."[1]

"Adam böyük günahlardan uzaq duraraq səmimi-qəlbdən "lə ilahə illəllah!" desə, onun üçün göy qapıları açılar və bu kəlmə Ərşə doğru yüksələr."[2]

"Ən xeyirli dua Ərəfat günü edilən dua, ən xeyirli söz isə mənim və məndən əvvəlki peyğəmbərlərin dediyi bu sözdür:

((لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

---

[1] Musnəd İmam Əhməd, 2/213; Silsilə əl-Əhadis əs-Səhihə, 135.

[2] Sunən ət-Tirmizi, 3590; Mişkat əl-Məsabih, 2314.

“Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qədir”[1].[2]

“Kim məğrib və sübh namazlarını qıldıqdan sonra *namaz qıldığı* yerdən qalxmadan və *təşəhhüddə oturduğu* vəziyyətini dəyişmədən öncə on dəfə

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ))

“Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmd, yuhyi və yumit, və huvə alə kulli şeyin qadir[3]”–

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir.

[2] Sunən ət-Tirmizi, 3585; Mişkat əl-Məsabih, 1503.

[3] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk

desə, ona bu zikrlərin hər birinə görə on savab yazılar, on günahı silinər və məqamı on dərəcə yüksələr. Üstəlik, bu kəlmələr onu şər və şeytandan qoruyar. Habelə, şirkdən başqa heç bir günah onun əməlini puç etməz və o, əməl baxımından ən fəzilətli insanlardan sayılar."[1]

"Kim gün ərzində yüz dəfə

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ))

"Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir![2]"– desə, on kölə azad etmiş sayılar, ona yüz savab yazılar,

---

Onundur və həmd Ona məxsusdur, dirildən də, öldürən də Odur, və O, hər şeyə Qadirdir!

[1] Musnəd İmam Əhməd, 5/420; Silsilə əl-Əhadis əs-Səhihə, 114.

[2] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir!

yüz günahı silinər, bu dualar axşama qədər onu şeytandan qoruyar."[1]

Əbu Zərr ﵁ demişdir: "Bir gün mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah, mənə nəsihət et!" O buyurdu: "Pis iş görsən, dalınca yaxşı əməl et ki, onu silib aparsın." Mən dedim: "Ya Rəsulullah, "lə ilahə illəllah" *demək* yaxşı əməllərdən sayılırmı?" O dedi: "Lə ilahə illəllah" əməllərin ən fəzilətlisidir."[2]

---

[1] Səhih əl-Buxari, 6403; Səhih Muslim, 2071.

Şeyx Muhəmməd Nasirəddin ﵀ "Silsilə əl-Əhadis əs-Səhihə" əsərində (2762) demişdir: "Bu hədisdə "yüz dəfə" deyildikdə, gündə bir kərə bunu etmək nəzərdə tutulmur. Qeyd edək ki, bunu həm <u>səhər</u>, həm də <u>axşam</u> yüz dəfə demək gərəkdir ki, bu da öz təsdiqini Nəsainin rəvayət etdiyi hədisdə tapmışdır. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "səhər yüz dəfə və axşam yüz dəfə"– desə..." (Sunən ən-Nəsai, 575).

[2] Musnəd İmam Əhməd, 5/169; Silsilə əl-Əhadis əs-Səhihə, 1373.

Əbu Hureyrə ﵁ demişdir: “Bir dəfə mən Peyğəmbərdən ﷺ soruşdum: “Ya Rəsulullah! Qiyamət günü sənin şəfaətin sayəsində ən böyük səadətə çatan adam kim olacaq?” O dedi: “Ey Əbu Hureyrə! Mən sənin hədis öyrənməyə olan hərisliyindən bilirdim ki, səndən əvvəl heç kəs bu haqda soruşmayacaq. Qiyamət günü mənim şəfaətim sayəsində ən böyük səadətə çatanlar, səmimi-qəlbdən “lə ilahə illəllah” deyənlər olacaq.”[1]

“Lə ilahə illəllah” deyən və *qəlbən* bunu təsdiqləyərək ölən hər bir bəndə mütləq Cənnətə girəcəkdir.”[2]

Uca Allah bizlərə son nəfəsimizdə “Lə ilahə illəllah!” deməyi nəsib etsin!

---

[1] Səhih əl-Buxari, 99.

[2] Səhih Muslim, 273.

# Subhanəllah, əlhəmdulilləh, lə ilahə illəllah, Allahu əkbər

Bir qədər öncə ən fəzilətli zikrin “lə ilahə illəllah” olduğunu qeyd etdik. Bu zikrə “subhanəllah”, “əlhəmdulilləh” və “Allahu əkbər” kəlmələrini artırdıqda, onun əzəməti daha da artar:

(( سُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ،
وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَاللَّهُ أَكْبَرُ ))

“Subhanəllahi, vəlhəmdulilləhi, və lə ilahə illəllahu, vəllahu əkbər!”[1]

Bu zikrin fəzilətinə dair neçə-neçə hədislər rəvayət edilmişdir ki, bunlardan xəbərdar mömin əsla onu tərk etməz.

---

[1] Tərcüməsi: Allah pak və müqəddəsdir! Həmd Allaha məxsusdur! Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur! Allah ən böyükdür!

Qeyd edək ki, bu kəlmələri hansısa bir ardıcıllıqda demək vacib deyil. Bu xüsusda, Rəsulullah ﷺ demişdir: "Allah üçün ən sevimli kəlimə dörddür, hansından istəyirsən başla: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər."[1]

Göründüyü kimi, bu kəlmələr Allahın və Peyğəmbərinin ﷺ ən çox sevdiyi kəlmələrdir. Peyğəmbər ﷺ demişdir: "Mənim üçün "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər"– demək, dünya və onun içindəkilərdən daha əzizdir."[2]

Bu zikr, onu tələffüz edən möminin günahlarını silib aparır. Rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ bir *ağacın* budağını silkələdi və onun yarpaqları töküldü. Onda o ﷺ dedi: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu

---

[1] Səhih Muslim, 2/172.

[2] Səhih Muslim, 8/70.

əkbər" kəlmələrini deyənin günahları bu yarpaqlar kimi tökülür."[1]

Peyğəmbər ﷺ həmçinin demişdir: "Yer üzündə "Lə ilahə illəllahu, vəllahu əkbəru, və subhanəllahi, vəlhəmdulilləhi, və lə hovlə və lə quvvətə illə billəh" deyən elə bir mömin yoxdur ki, onun günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanmasın."[2]

Yenə o ﷺ demişdir: "Allah *Öz qulları üçün* dörd kəlmə seçmişdir: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər!" Kim "Subhanəllah!" desə, ona iyirmi savab yazılar və onun iyirmi günahı silinər, "Allahu əkbər!"– desə, ona yenə iyirmi savab yazılar və onun iyirmi günahı silinər, "Lə ilahə illəllah!" desə, ona yenə iyirmi savab yazılar və onun iyirmi günahı silinər və nəhayət,

---

[1] Musnəd imam Əhməd, 3/152; Silsilə əl-Əhadis əs-Səhihə, 3168.

[2] Musnəd İmam Əhməd, 2/210; Səhih əl-Cami, 5636.

səmimi-qəlbdən "Əlhəmdulilləhi Rabbil-aləmin!"[1] desə, ona otuz savab yazılar və onun otuz günahı silinər."[2]

Bu zikr insanı Cəhənnəm odundan qoruyan bir sipərdir. Əbu Hureyra ﵁ demişdir: "Bir gün Rəsulullah ﷺ bizə: "Qalxanınızı götürün!"– deyə buyurdu. Biz dedik: "Ya Rəsulullah, üstümüzə düşmənmi gəlir?" O dedi: "Yox, sizi Cəhənnəm odundan qoruyacaq qalxanınızı götürün: Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər!" deyin."[3]

Bu zikri deyən kimsənin adı Allah yanında çəkilir. Rəsulullah ﷺ demişdir:

---

[1] Tərcüməsi: Həmd aləmlərin Rəbbinə məxsusdur!

[2] Musnəd İmam Əhməd, 2/302; Səhih əl-Cami, 1718.

[3] Mustədrək əl-Hakim, 1/541; Səhih əl-Cami, 3214.

“Allahı tərif edərək zikr etdiyiniz təsbih[1], təkbir[2], təhlil[3] və təhmidlər[4] Ərşin ətrafında dövr edir. Həmin vaxt onlardan arıların vızıltısı kimi bir səs gəlir – onlar öz sahibini zikr edirlər.[5] İstəmirsiniz ki, davamlı şəkildə sizin adınızı zikr edənlər olsun?!”[6]

Bu zikri edən kimsənin fəziləti Qiyamət günü çox yüksək olacaq. Rəvayət edilir ki, Bənu Uzra qəbiləsindən üç nəfər Peyğəmbərin ﷺ yanına gəlib İslam dinini qəbul etdi. Sonra Peyğəmbər ﷺ: “Kim bunları öz himayəsinə götürər?”– deyə soruşdu. Talhə ibn Ubeydullah رضي الله عنه

---

[1] “Subhanəllah!” demək.

[2] “Allahu Əkbər!” demək.

[3] “Lə ilahə illəllah!” demək.

[4] “Əlhəmdulilləh!” demək.

[5] Yəni onları zikr edən kimsənin adını çəkir, Allah yanında onun üçün şahidlik edirlər.

[6] Musnəd İmam Əhməd, 4/271; Silsilə əl-Əhadis əs-Səhihə, 3358.

bu işi öz öhdəsinə götürdü. Bir müddət sonra Peyğəmbər ﷺ ordu hazırlayıb döyüşə göndərdi. Həmin üç nəfərdən biri onlara qoşuldu və döyüşdə şəhid oldu. Bir müddət sonra Peyğəmbər ﷺ yenə bir ordu hazırlayıb döyüşə göndərdi. Onlardan ikincisi orduya qoşuldu və döyüşdə şəhid oldu. Üçüncüsü isə yataqda vəfat etdi. Talhə رضي الله عنه dedi: "Mən yuxuda bu üç nəfərin Cənnətə girdiyini gördüm. Yataqda vəfat edənin öndə durduğunu, ikinci şəhid olanın onun arxasında durduğunu, ilk şəhid olanın isə sonda durduğunu gördüm. Bu yuxu mənə qəribə gəldi və mən onu Peyğəmbərə ﷺ danışdım." Peyğəmbər ﷺ dedi: "Səni təəccübləndirən nədir?! Allah yanında daim çoxlu təkbir, təsbih, təhlil və təhmid gətirərək yaşayan kimsədən daha fəzilətli bir kimsə ola bilməz."[1]

---

[1] Musnəd İmam Əhməd, 1/163; Silsilə əl-Əhadis əs-Səhihə, 654.

Bu zikr, savabı Qiyamət günü tərəzidə ən ağır gələn əməllərdəndir. Rəsulullah ﷺ beş şeyə işarə edərək demişdir: “Bəh, bəh! Tərəzidə ən ağır gələnlər necə də gözəldir: Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər *kəlmələri,* bir də müsəlmanın vəfat etmiş əməlisaleh övladıdır. Çünki o bu itkinin savabını Allahdan umur.”[1]

Əbu Zərr رضي الله عنه rəvayət edir ki, bir dəfə kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: “Ya Rəsulullah, varlılar bizdən *çox* savab qazanırlar. Onlar bizim kimi namaz qılır, oruc tutur və üstəlik, ən gözəl mallarını *Allah yolunda* sədəqə verirlər.” O dedi: “Məgər Allah sizin üçün sədəqə verəcəyiniz şeylər hazırlamayıb?! Hər bir təsbih, hər bir təkbir, hər bir təhmid və hər bir təhlil sədəqədir...”[2]

---

[1] Mustədrək əl-Hakim, 1/511-512; Silsilə əl-Əhadis əs-Səhihə, 1204.

[2] Səhih Muslim, 3/82.

Rəvayət edilir ki, bədəvilərdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, mən Quranı öyrənə bilmirəm. Mənə bunu əvəz edəcək xeyirli sözlər öyrət!" Peyğəmbər ﷺ buyurdu: «De: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər və lə hovlə və lə quvvətə illə billəh"». Bədəvi barmaqları ilə *bu kəlmələri* sayıb əlini yumdu və dedi: "Bunlar Allaha aiddir. Bəs, mənə aid olanı nədir?" Peyğəmbər ﷺ buyurdu: "De:

(( اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَعَافِنِي، وَارْزُقْنِي، وَاهْدِنِي ))

"Allahumməğfirli, vərhəmni, və afini, vərzuqni, vəhdini"[1]. Bədəvi *bu kəlmələri də*

[1] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et, mənə salamatlıq əta et, mənə ruzi ver, mənə hidayət ver!

barmaqları ilə sayıb əlini yumdu. Onda Peyğəmbər ﷺ dedi: "Bu adam hər iki əlini xeyirlə doldurdu!"[1]

Peyğəmbər ﷺ demişdir: "Kim gecə yuxudan oyanıb:

((لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ، رَبِّ اغْفِرْ لِي))

"Lə ilahə illəllahu vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, əlhəmdulilləhi, və subhanəllahi, və lə ilahə illəllahu, vəl-lahu əkbər, və lə hovlə və lə quvvətə illə

---

[1] Sunən Əbu Davud, 1/133; Səhih ət-Tərğib vət-Tərhib, 1561.

billahil-aliyyil-azim! Rabbiğfir li!”[1]– desə, duası və namazı qəbul olunar.”[2]

Rəvayət edilir ki, bir gün Ummu Hani رضي الله عنها Peyğəmbərə ﷺ dedi: “Mən artıq yaşa dolmuşam, qocalıq məni əldən salıb. Mənə elə bir əməl öyrət ki, oturduğum yerdə ona əməl edim və savab qazanım.” Peyğəmbər ﷺ buyurdu: “Yüz dəfə “Subhanəllah!” de, bu sənin üçün İsmayıl عليه السلام nəslindən yüz kölə azad etməyə bərabər olacaq. Yüz dəfə “Əlhəmdulilləh!” de, bu sənin üçün Allah yolunda vuruşan mücahidlərə sədəqə edilən, yəhərlənmiş və yüyənlənmiş yüz ata bərabər olacaq. Yüz dəfə “Allahu əkbər!”

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir. Həmd Allaha məxsusdur. Allah pak və müqəddəsdir. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allaha aiddir! Ey Rəbbim, məni bağışla!

[2] Səhih əl-Buxari, 1154.

de, bu sənin üçün qurban kəsilmiş və Allah tərəfindən qəbul edilmiş yüz dəvəyə bərabər olacaq. Yüz dəfə "Lə ilahə illəllah!" de, bu sənin üçün yerlə göy arasını savabla dolduracaq..."[1]

Rəsulullah ﷺ demişdir: "Merac gecəsində mən İbrahimi عليه السلام gördüm. O dedi: "Ey Muhəmməd! Məndən ümmətinə salam söylə və onlara bildir ki, Cənnətin torpağı ətirli, suyu da olduqca şirindir. Yeri dümdüzdür, üzərinə əkilənlər isə: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər!" kəlmələridir."[2]

---

[1] Musnəd İmam Əhməd, 6/344; Silsilə əl-Əhadis əs-Səhihə, 1316.

[2] Sunən ət-Tirmizi, 3462; Silsilə əl-Əhadis əs-Səhihə, 105.

# Lə hovlə və lə quvvətə illə billəh

Fəziləti çox olan zikrlərdən biri də

(( لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ ))

“Lə hovlə və lə quvvətə illə billəh!”[1] kəlməsidir.

Abdullah ibn Abbas ﷺ bu zikri belə izah etmişdir: “Biz yalnız Allahın qüdrəti sayəsində yaxşı işlər görə bilər və yalnız Onun köməyi sayəsində günah işlərdən uzaq dura bilərik.”

Bu zikr hər bir xeyirin açarı sayılır və xeyirli işlərin başlanğıcında deyilir. Bəzi müsəlmanlar bu zikri yalnız müsibət üz verdikdə edirlər ki, bu da, xətadır. Müsibət gəldikdə “İnnə lillahi və innə ileyhi raciun”[2] deyilməlidir.

---

[1] Tərcüməsi: Qüdrət və güc yalnız Allahdadır!

[2] Tərcüməsi: Biz Allah üçün yaşayırıq və Onun hüzuruna qayıdacağıq.

Bu möhtəşəm zikrin fəzilətinə dair bir çox hədislər varid olmuşdur:

Rəsulullah ﷺ demişdir: "Lə hovlə və lə quvvətə illə billəh!" kəlməsini çox zikr edin! Çünki bu kəlmə Cənnət xəzinələrindən biridir."[1]

Rəvayət edilir ki, meracda İbrahim عليه السلام Muhəmməd peyğəmbərə ﷺ belə nəsihət etmişdir: "Ümmətinə əmr et ki, *özləri üçün* Cənnətdə çoxlu ağac əksinlər! Cənnətin torpağı ətirli, yeri də olduqca genişdir." Peyğəmbər ﷺ ondan: "Cənnət ağacları nədir?"– deyə soruşduqda, İbrahim عليه السلام belə cavab vermişdir: "Lə hovlə və lə quvvətə illə billəh!"[2]

Bir gün Peyğəmbər ﷺ Muaz ibn Cəbələ رضي الله عنه dedi: "Səni Cənnət qapılarından birinə yönəldimmi?" O: "Nədir o,

---

[1] Musnəd İmam Əhməd, 2/333; Silsilə əl-Əhadis əs-Səhihə, 1528.

[2] Musnəd İmam Əhməd, 5/418; Səhih ət-Tərğib vət-Tərhib, 1583.

*ya Rəsulullah?"* deyə soruşduqda, Peyğəmbər ﷺ: "Lə hovlə və lə quvvətə illə billəh!" kəlməsidir" dedi.[1]

Peyğəmbər ﷺ demişdir: "Allah üçün ən sevimli kəlimələr *bunlardır*:

(( سُبْحَانَ اللَّهِ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ، سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ ))

"Subhanəllahi, lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, lə hovlə və lə quvvətə illə billəh, subhanəllahi və bihəmdih.[2]"[3]

---

[1] Musnəd İmam Əhməd, 5/228; Səhih əl-Cami, 2610.

[2] Tərcüməsi: Allah pak və müqəddəsdir. Onun heç bir şəriki yoxdur. Mülk Ona aiddir, həmd Ona məxsusdur və O, hər şeyə qadirdir. Qüdrət və Qüvvət yalnız Allaha məxsusdur. Allah pak və müqəddəsdir. Ona həmd olsun.

[3] əl-Ədəbul-Mufrad, 638; Səhih əl-Ədəbul-Mufrad, səh. 238.

O ﷺ, həmçinin demişdir: “Adam evindən bayıra çıxdığı zaman:

((بِسْمِ اللهِ، تَوَكَّلْتُ عَلَى اللهِ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ))

“Bismilləh, təvəkkəltu aləllah, lə hovlə və lə quvvətə illə billəh!”– desə, həmin vaxt mələk: “Doğru yola yönəldin, işlərin yoluna qoyuldu, şərdən qorundun!”– deyər, şeytan isə ondan uzaq durar və yanındakılardan birinə deyər: “Doğru yola yönəlmiş, *işləri* yoluna qoyulmuş və *şərdən* qorunmuş adama biz heç nə edə bilmərik?!”[1]

Rəvayət edilir ki, bədəvilərdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ya Rəsulullah, mən Quranı öyrənə bilmirəm. Mənə bunu əvəz edəcək xeyirli sözlər öyrət!” Peyğəmbər ﷺ buyurdu:

[1] Sunən Əbu Davud, 5095; Səhih əl-Cami, 499.

«De: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər və lə hovlə və lə quvvətə illə billəh."»

Bədəvi barmaqları ilə *bu kəlmələri* sayıb əlini yumdu və dedi: "Bunlar Allaha aiddir. Bəs, mənə aid olanı nədir?" Peyğəmbər ﷺ buyurdu: «De:

((اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَعَافِنِي، وَارْزُقْنِي، وَاهْدِنِي))

"Allahumməğfirli, vərhəmni, və afini, vərzuqni, vəhdini."[1]»

Bədəvi barmaqları ilə *bu kəlmələri də* sayıb əlini yumdu. Onda Peyğəmbər ﷺ dedi: "Bu adam hər iki əlini xeyirlə doldurdu!"[2]

---

[1] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et, mənə salamatlıq əta et, mənə ruzi ver, mənə hidayət ver!

[2] Sunən Əbu Davud, 1/133; Səhih ət-Tərğib vət-Tərhib, 1561.

Əbu Zər رضي الله عنه demişdir: “Əziz dostum ﷺ mənə yeddi şeyi – kasıbları sevməyi və onların yanında olmağı, özümdən yuxarı səviyyədə olanlara deyil, aşağı səviyyədə olanlara baxmağı, qohumlarım mənimlə sərt davransalar belə, onlarla əlaqə saxlamağı, “lə hovlə və lə quvvətə illə billəh!” kəlməsini çox zikr etməyi, haqqı deməyi, Allah üçün etdiyim əmələ görə məni qınayan kimsənin qınağına məhəl qoymamağı və bir də insanlara əl açmamağı tövsiyə etdi.”[1]

Əbu Hureyra رضي الله عنه demişdir: “Bir gün Allahın elçisi ﷺ mənə dedi: “Ey Əbu Hureyra, sənə Ərşin altında yerləşən Cənnət xəzinələrindən biri haqda xəbər verimmi? Bu, “lə hovlə və lə quvvətə illə billəh!” kəlməsidir. Bunu desən, Uca Allah: “Qulum əmrimə təslim oldu!”– deyər.”[2]

---

[1] Musnəd imam Əhməd, 5/159; Silsilə əl-Əhadis əs-Səhihə, 2166.

[2] Mustədrək əl-Hakim, 1/21; Səhih əl-Cami, 2614.

Peyğəmbər ﷺ həmçinin demişdir: “Yer üzündə: “Lə ilahə illəllahu, vəllahu əkbəru, və subhanəllahi, vəlhəmdulilləhi, və lə hovlə və lə quvvətə illə billəh”– deyən elə bir mömin yoxdur ki, onun günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanmasın.”[1]

Peyğəmbər ﷺ demişdir: “Adam: “Lə ilahə illəllah, vəllahu əkbər” desə, Allah buyurar: “Qulum doğru söylədi. Məndən başqa *ibadətə layiq* məbud yoxdur və Mən ən böyüyəm.” Adam: “Lə ilahə illəllahu vəhdahu” desə, Allah buyurar: “Qulum doğru söylədi. Məndən başqa *ibadətə layiq* məbud yoxdur.” Adam: “Lə ilahə illəllah, lə şərikə ləh” desə, Məndən başqa *ibadətə layiq* məbud yoxdur və Mənim heç bir şərikim yoxdur.” Adam “Lə ilahə illəllah, ləhul-mulku və ləhul-həmd” desə, Allah

---

[1] Musnəd İmam Əhməd, 2/210; Səhih əl-Cami, 5636.

buyurar: "Qulum doğru söylədi. Məndən başqa *ibadətə layiq* məbud yoxdur, mülk də, həmd də, yalnız Mənə məxsusdur!" Adam "Lə ilahə illəllah, və lə hovlə və lə quvvətə illə billəh" desə, Allah buyurar: "Qulum doğru söylədi. Məndən başqa *ibadətə layiq* məbud yoxdur, güc və qüvvət, yalnız Mənə məxsusdur."[1]

Peyğəmbər ﷺ demişdir: "Kim yatağına uzandıqda:

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ، سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ))

"Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və hu-

---

[1] Sunən ət-Tirmizi, 3430; Sunən İbn Macə, 3794; Silsilə əl-Əhadis əs-Səhihə, 1390.

və alə kulli şeyin qadir, və lə hovlə və lə quvvətə illə billəh, subhanallah, vəlhəmdulilləh, və lə ilahə illəllah, vəllahu əkbər!" [1] – desə, günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanar."[2]

Peyğəmbər ﷺ demişdir: "Kim gecə yuxudan oyanıb:

((لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ، رَبِّ اغْفِرْ لِي))

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir. Qüdrət və güc yalnız Allaha aiddir! Allah pak və müqəddəsdir. Həmd Allaha məxsusdur. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Allah ən Böyükdür.

[2] Səhih İbn Hiban, 2365; Silsilə əl-Əhadis əs-Səhihə, 3414.

"Lə ilahə illəllahu vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, əlhəmdulilləhi, və subhanəllahi, və lə ilahə illəllahu, vəllahu əkbər, və lə hovlə və lə quvvətə illə billəhil-aliyyil-azim! Rabbiğfir li!"[1]– desə, duası və namazı qəbul olunar."[2]

Peyğəmbər ﷺ demişdir: "Müəzzin "Allahu əkbər, Allahu əkbər"[3] dedikdə hər kim "Allahu əkbər, Allahu əkbər" desə; müəzzin: "Əşhədu ən lə ilahə illəllah"[4] dedikdə, o: "Əşhədu ən lə ilahə

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir. Həmd Allaha məxsusdur. Allah pak və müqəddəsdir. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allaha aiddir! Ey Rəbbim, məni bağışla!

[2] Səhih əl-Buxari, 1154.

[3] Allah ən böyükdür!

[4] Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur!

illəllah” desə; müəzzin: “Əşhədu ənnə Muhəmmədən rasulullah”[1] dedikdə, o: “Əşhədu ənnə Muhəmmədən rasulullah” desə; müəzzin: “Hayyə aləs-saləh”[2] dedikdə, o: “Lə hovlə və lə quvvətə illə billəh”[3] desə; müəzzin “Hayyə aləl-fələh”[4] dedikdə, o *yenə*: “Lə hovlə və lə quvvətə illə billəh” desə; müəzzin “Allahu əkbər, Allahu əkbər” dedikdə, o: “Allahu əkbər, Allahu əkbər” desə; və nəhayət, müəzzin: “Lə ilahə illəllah”[5] dedikdə, o da, qəlbən inanaraq “lə ilahə illəllah” desə, Cənnətə daxil olar.”[6]

Rəvayət edilir ki, Osman ibn Affandan ﷛ əbədi qalacaq yaxşı əməllər

---

[1] Mən şahidlik edirəm ki, Muhəmməd Allahın elçisidir.

[2] Namaza tələsin!

[3] Qüdrət və güc yalnız Allahdadır!

[4] Uğur qazanmağa tələsin!

[5] Allahdan başqa *ibadətə layiq* məbud yoxdur!

[6] Səhih Muslim, 850.

barədə soruşulduqda, o belə cavab vermişdir: “Bu:

((لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَسُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَاللَّهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ))

“Lə ilahə illəllah, və subhanəllah, vəlhəmdulilləh, vəllahu əkbər və lə hovlə və lə quvvətə illə billəh”[1] kəlmələridir.”[2]

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* ilah yoxdur, Allah pak və müqəddəsdir, həmd Allaha məxsusdur, Allah ən böyükdür, qüdrət və güc yalnız Allahdadır!

[2] Musnəd imam Əhməd, 1/71. Bu suala İbn Ömər رضي الله عنهما və Səid ibn əl-Museyyib رحمه الله də eyni cavabı vermişlər. (Təfsir ət-Təbəri, 11/254-255).

## Subhanəllahi və bihəmdih

Gündəlik olaraq təkrar-təkrar deyilməsi bəyənilən ən fəzilətli zikrlərdən biri də

(( سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ ))

"Subhanəllahi və bihəmdih!"[1] kəlməsidir.

Bu kəlmənin də fəzilətinə dair neçə-neçə hədislər rəvayət edilmişdir:

"Allah üçün ən sevimli kəlmə: "Subhanəllahi və bihəmdih" *kəlməsidir*."[2]

"Ən fəzilətli kəlam Allahın Öz qulları üçün seçdiyi: "Subhanəllahi və bihəmdih" *kəlməsidir*."[3]

---

[1] Tərcüməsi: Allah pak və müqəddəsdir. Allaha həmd olsun!

[2] Səhih Muslim, 7102.

[3] Səhih Muslim, 7101.

“Kim hər gün yüz dəfə: “Subhanəllahi və bihəmdih”– desə, onun günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanar.”[1]

“Kim bir dəfə: “Subhanəllahi və bihəmdih”– desə, Cənnətdə onun üçün bir xurma ağacı əkilər.”[2]

“Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə *vardır ki, bunlar*:

(( سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ، سُبْحَانَ اللَّهِ الْعَظِيمِ ))

“Sübhanəllahi və bihəmdihi, subhanəllahil-azim!”[3] *kəlmələridir*.”[4]

“Kim gecə namazına qalxmağa tənbəllik etsə, malını xərcləməyə xəsislik etsə və düşmənlə cihad etməkdən qorxarsa,

[1] Səhih əl-Buxari, 6405; Səhih Muslim, 8/69.

[2] Sunən ət-Tirmizi, 2/258-259; Silsilə əl-Əhadis əs-Səhihə, 64.

[3] Tərcüməsi: Allah pak və müqəddəsdir. Allaha həmd olsun! Böyük Allah pak və müqəddəsdir!

[4] Səhih əl-Buxari, 7563; Səhih Muslim, 8/70.

qoy təkrar-təkrar: “Subhanəllahi və bihəmdih”– desin.[1]

“Nuh peyğəmbər عليه السلام ölüm yatağında ikən oğluna belə buyurmuşdur: “Mən sənə “Sübhanəllahi və bihəmdih” kəlməsini deməyi *tövsiyə edirəm*. Çünki bu kəlmə hər bir şeyin duasıdır. Bunun sayəsində hər şeyə ruzi verilir.”[2]

Rəvayət edilir ki[3], Aişə رضي الله عنها demişdir: “Rəsulullah ﷺ ömrünün sonunda bu duanı çox edərdi:

(( سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ، أَسْتَغْفِرُ اللهَ وَأَتُوبُ إِلَيْهِ ))

“Subhanəllahi və bihəmdih, əstəğfirullahə və ətubu ileyh.”[4]

---

[1] əl-Mocəm ət-Təbərani, 7699; Səhih ət-Tərğib vət-Tərhib, 1541.

[2] Musnəd İmam Əhməd, 2/169-170; Səhih əl-Ədəbul-Mufrad, 548.

[3] Səhih Muslim, 2/50.

[4] Tərcüməsi: Allah pak və müqəddəsdir. Allaha həmd olsun. Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!

Aişə رضي الله عنها deyir ki, mən soruşdum: "Ya Rəsulullah, bu kəlmələri çoxlu zikr etməyinin səbəbi nədir?" O dedi: "Rəbbim mənə ümmətimə dair bir əlamət görəcəyimi xəbər vermiş və o əlaməti gördükdə təkrar-təkrar: "Subhanəllahi və bihəmdih, əstəğfirullahə və ətubu ileyh" deməyi buyurmuşdur. Artıq o əlaməti gördüm: **"Allahın köməyi və qələbə gəldiyi zaman"** – yəni Məkkə fəth edildiyi zaman – **"insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə, həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"**[1]

Rəsulullah ﷺ demişdir: "Kim hər səhər və hər axşam yüz dəfə:

(( سُبْحَانَ اللهِ الْعَظِيمِ، وَبِحَمْدِهِ ))

[1] "ən-Nəsr" surəsi.

"Subhanəllahil-azim və bihəmdih!"[1] desə, yaradılanlardan heç kəs onun qədər əzəmətli bir iş görmüş sayılmaz."[2]

İbn Abbas ﵄ demişdir: "Peyğəmbər ﷺ sübh namazndan sonra Cuveyriyanın[3] ﵂ yanından çıxıb getdi və gün qalxdıqdan sonra onun yanına qayıtdı. Cuveyriya ﵂ hələ də oturduğu yerdə idi. Peyğəmbər ﷺ dedi: "Sən indiyə qədər zikr edirsən?" O: "Bəli!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: "Mən səndən ayrılandan sonra üç kərə elə dörd kəlmə dedim ki, əgər onlar tərəzidə çəkilsə, sənin dediklərindən ağır gələr:

(( سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ عَدَدَ خَلْقِهِ وَرِضَا نَفْسِهِ وَزِنَةَ عَرْشِهِ وَمِدَادَ كَلِمَاتِهِ ))

---

[1] Tərcüməsi: Böyük Allah pak və müqəddəsdir! Allaha həmd olsun!

[2] Sunən Əbu Davud, 5091; Silsilə əl-Əhadis əs-Səhihə", 2563.

[3] Cuveyriya ﵂ Peyğəmbərin ﷺ zövcəsidir.

“Subhanəllahi və bihəmdihi, adədə xalqihi, və rida nəfsihi, və zinətə arşihi və midadə kəlimatih![1]”[2]

Rəsulullah ﷺ demişdir: “Kim dəstəmaz aldıqdan sonra:

(( سُبْحَانَكَ اللهُمَّ، وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ ))

“Subhanəkə-llahummə və bihəmdik, əşhədu ən lə ilahə illə ənt, əstəğfirukə və ətubu ileyk!”[3]– desə, bu kəlmələr nazik dəriyə yazılar, sonra üzərinə möhür

---

[1] Tərcüməsi: Yaratdıqlarının sayı, Özünün razı qaldığı, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər həmd edərək Allaha təriflər deyirik!

[2] Səhih Muslim, 8/83.

[3] Tərcüməsi: Allahım, Sən pak və müqəddəssən! Həmd Sənə məxsusdur! Mən şahidlik edirəm ki, Səndən başqa *ibadətə layiq* məbud yoxdur. Mən Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm!

vurular və bu möhür Qiyamət gününədək qırılmaz."[1]

Rəsulullah ﷺ demişdir: "Kim məclis başa çatdıqda: "Subhanəkəllahummə və bihəmdik, əşhədu ən lə ilahə illə ənt, əstəğfirukə və ətubu ileyk!"– desə, məclisdə ikən yol verdiyi günahları silinər."[2]

---

[1] Nəsai, Əməlul-Yovmi vəl-Leyl, səh. 173; İrva əl-Ğəlil, 1/135 və 2/94.

[2] Musnəd imam Əhməd, 6/77; Səhih ət-Tirmizi, 3/153.

## Əstəğfirullahə və ətubu ileyh

Gündəlik olaraq təkrar-təkrar deyilməsi bəyənilən ən fəzilətli zikrlərdən biri də

(( أَسْتَغْفِرُ اللهَ وَأَتُوبُ إِلَيْهِ ))

“Əstəğfirullahə və ətubu ileyh!”[1] zikridir

Peyğəmbər ﷺ öz ümmətinə bu zikri hər gün təkrar-təkrar deməyi buyuraraq demişdir: “Ey insanlar, Allaha tövbə edin və Ondan bağışlanma diləyin! Mən hər gün yüz dəfə Ona tövbə edir və Ondan bağışlanma diləyirəm!”[2]

---

[1] Tərcüməsi: Allahım, məni bağışla və mənim tövbəmi qəbul et!

[2] Musnəd İmam Əhməd, 4/260-261; Silsilə əl-Əhadis əs-Səhihə, 1452.

Əbu Hureyrə رضي الله عنه demişdir: “Mən Peyğəmbərdən ﷺ daha çox: “Əstəğfirullahə və ətubu ileyh!”– deyən bir kimsə görmədim.”[1]

Bu möhtəşəm zikrin fəzilətinə dair bir çox hədislər varid olmuşdur:

Peyğəmbər ﷺ demişdir: “Əməl dəftərinə çoxlu istiğfar yazılmış kimsənin xoş halına!”[2]

Qüdsi hədisdə uca Allah buyurur: “Ey Adəm övladı! Nə qədər ki, Mənə dua edir və Mənim *mərhəmətimə* ümid bağlayırsan, Mən sənin günahlarının hamısını bağışlayır, *günahın çoxluğuna və böyüklüyünə* əhəmiyyət vermirəm. Ey Adəm övladı! Əgər sənin günahların *yerdən* göyədək olsa, sonra da Məndən

---

[1] Səhih İbn Hibban, 928.

[2] ən-Nəsai, Aməlul-Yovm vəl-Leylə, 455; Səhih ət-Tərğib vət-Tərhib, 1618.

bağışlanma diləsən, Mən səni bağışlayar, *günahın çoxluğuna və böyüklüyünə* əhəmiyyət vermərəm. Ey Adəm övladı! Əgər sən yer dolusu günahla Mənə tərəf gəlsən və heç bir şeyi Mənə şərik qoşmadan Mənim hüzuruma çıxsan, Mən sənə yer dolusu məğfirət əta edərəm."[1]

Rəsulullah ﷺ demişdir: "Bir zaman İblis öz Rəbbinə: "Sənin izzətinə və cəlalına and olsun ki, Adəm övladlarının ruhları bədənlərində olduğu müddətcə[2] mən onları haqq yolundan sapdıracağam!"– demiş, Rəbbi də ona belə cavab vermişdi: "İzzətimə və cəlalıma and olsun ki, onlar Məndən bağışlanma dilədikcə, Mən onları bağışlayacağam!"[3]

---

[1] Sunən ət-Tirmizi, 2/270; Silsilə əl-Əhadis əs-Səhihə, 127.

[2] Yəni ölənədək.

[3] Musnəd İmam Əhməd, 3/41; Səhih əl-Cami, 499.

Allahdan bağışlanma diləmək və Ona tövbə etmək xüsusunda "Əstəğfirullahə və ətubu ileyh" ifadəsinin daha geniş yayılmış bir zikr olmasına baxmayaraq, Sünnədə istiğfarın başqa ifadələri də varid olmuşdur:

Rəvayət edilir ki, Rəsulullah ﷺ duha namazını qıldıqdan sonra yüz dəfə

(( اللَّهُمَّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ ))

"Allahumməğ-firli, və tub aleyyə, innəkə əntət-Təvvabur-Rəhim!"[1]– deyərdi."[2]

İbn Ömər رضي الله عنهما demişdir: "Biz Peyğəmbərin ﷺ məclisində olanda onun yüz dəfə

---

[1] Tərcüməsi: Allahım, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən, Sən Tövbələri qəbul edənsən, Rəhmlisən!

[2] Musnəd İmam Əhməd, 2/21; Səhih əl-Ədəbul-Mufrad, 619.

(( رَبِّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ ))

“Rabbiğ-firli və tub aleyyə, innəkə əntət-Təvvabur-Rəhim!”[1] – dediyini eşidərdik.”[2]

Rəsulullah ﷺ demişdir: “Kim

(( أَسْتَغْفِرُ اللَّهَ الَّذِى لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ وَأَتُوبُ إِلَيْهِ ))

“Əstəğfirullahəlləzi lə ilahə illə huvəl-Həyyul-Qəyyumu və ətubu ileyh!”[3]– desə,

---

[1] Tərcüməsi: Ey Rəbbim, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən, Sən Tövbələri qəbul edənsən, Rəhmlisən!

[2] Musnəd imam Əhməd, 2/21; Silsilə əl-Əhadis əs-Səhihə, 556.

[3] Tərcüməsi: Özündən başqa heç bir *haqq* məbud olmayan, *əbədi* Yaşayan və *bütün yaratdıqlarının* Qəyyumu olan Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!

döyüş meydanından qaçmış olsa belə, onun günahları bağışlanar."[1]

Rəsulullah ﷺ ömrü boyu Rəbbindən bağışlanma diləmiş və ömrünün sonunda isə istiğfarı daha da artırmışdır.

Rəvayət edilir ki,[2] Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ ömrünün sonunda bu duanı çox edərdi:

((سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ، أَسْتَغْفِرُ اللَّهَ وَأَتُوبُ إِلَيْهِ))

"Subhanəllahi və bihəmdih, əstəğfirullahə və ətubu ileyh."[3]

Aişə رضي الله عنها deyir ki, mən soruşdum: "Ya Rəsulullah, bu zikri çox etməyinin səbəbi nədir?" O dedi: "Rəbbim mənə ümmətimə dair bir əlamət görəcəyimi xəbər vermiş və o əlaməti gördükdə təkrar-

---

[1] Sunən Əbu Davud, 1519; Səhih Əbu Davud", 1358.

[2] Səhih Muslim, 2/50.

[3] Tərcüməsi: Allah pak və müqəddəsdir. Allaha həmd olsun. Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!

təkrar: “Subhanəllahi və bihəmdih, əstəğfirullahə və ətubu ileyh” deməyi buyurmuşdur. Artıq o əlaməti gördüm: **“Allahın köməyi və qələbə gəldiyi zaman”** – yəni Məkkə fəth edildiyi zaman, **“insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə, həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!”**[1]

Beləcə, Rəsulullah ﷺ ömrünün sonunadək Allahdan bağışlanma diləməyinə davam etmiş, hətta son nəfəsində belə Rəbbi ona əllərini qaldırıb:

(( اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى ))

“Allahummə-ğfirli vər-həmni və əlhiqni bir-rəfiqil-ə'la!”[2]– deməyi müvəffəq etmişdir”.[3]

---

[1] “ən-Nəsr” surəsi.

[2] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur!

[3] Səhih əl-Buxari, 5674; Səhih Muslim, 7/137.

## Salavat

Gündəlik olaraq deyilməsi bəyənilən ən fəzilətli zikrlərdən biri də Rəsulullah ﷺ yad edildikdə ona salavat və salam deməkdir.

(( اللَّهُمَّ صَلِّ وَسَلِّمْ عَلَى نَبِيِّنَا مُحَمَّدٍ ))

“Allahummə salli və səllim alə nəbiyyinə Muhəmməd!”[1]

Rəsulullaha ﷺ salavat deməyin vacib olması xüsusunda Quranda belə buyurulur: **“Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyir. Ey iman gətirənlər! Siz də ona salavat deyin və onu salamlayın.”**[2]

---

[1] Tərcüməsi: Allahım, Peyğəmbərimiz Muhəmmədə salavat və salam yetir!

[2] “əl-Əhzab” surəsi, 56.

Allahın ona salavat deməsi, onu tərifləməsi və ona mərhəmət etməsi, mələklərin ona salavat deməlәri isə onun üçün xeyir-bərəkət diləmələridir.[1]

Peyğəmbər ﷺ də belə buyurmuşdur: "Mənə belə salavat gətirin:

(( اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ ))

"Allahummə salli alə Muhəmmədin və əla ali Muhəmməd, və barik alə Muhəmmədin və əla ali Muhəmməd, kəmə barəktə əla İbrahimə innəkə həmidun məcid.[2]"[3]

---

[1] əl-Abbad, Fadlus-salati alən-Nəbi, 1/54.

[2] Tərcüməsi: Allahım, İbrahimə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də, həm xeyir-dua, həm də də bərəkət ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!

[3] Musnəd İmam Əhməd, 1/199; Səhih əl-Cami, 3783.

"Mənə çoxlu salavat deyin! Belə ki, Allah mənim üçün qəbrimin başında duran bir mələk təyin etmişdir. Ümmətimdən bir kimsə mənə salavat gətirdiyi zaman, o mələk mənə deyər: "Ey Muhəmməd, filankəsin oğlu filankəs indi sənə salavat deyir."[1]

"Mənə salavat deyin! Bilin ki, harada olsanız, sizin salavatınız mənə yetişəcəkdir."[2]

"Paxıl o kimsədir ki, adım çəkildikdə, mənə salavat demir."[3]

"Məclisdə oturarkən Rəbbini zikr etməyən və Peyğəmbərinə salavat gətirməyən camaat Qiyamət günü ziyana uğrayar –

---

[1] əd-Deyləmi, əl-Firdovs, (1/1/31); Səhih əl-Cami, 1207.

[2] Sunən Əbu Davud, 2042; Mişkat əl-Məsabih, 926.

[3] Musnəd İmam Əhməd, 1/201; Səhih əl-Cami, 2878.

Allah istəsə onlara əzab verər, istəsə, onları bağışlayar."[1]

Rəvayət edilir ki, *bir gün* Peyğəmbər ﷺ minbərin birinci pilləsinə qalxıb: "Amin!" dedi. Sonra ikinci pilləsinə qalxıb: "Amin!" dedi. Sonra da üçüncü pilləsinə qalxıb: "Amin!" dedi. Səhabələr dedilər: "Ya Rəsulullah, biz sənin üç dəfə: "Amin!" dediyini eşitdik." Peyğəmbər ﷺ dedi: "Birinci pilləyə qalxdıqda Cəbrail yanıma gəlib dedi: "Ramazana yetişdikdən sonra günahları bağışlanmamış halda ondan ayrılan bəndə bədbəxt olsun!" Mən də: "Amin!" dedim. İkinci pillədə o dedi: "Valideynlərinin hər ikisi, yaxud biri qocalanadək onlarla bərabər yaşayan, sonra da *onların üzünə ağ olub, bu səbəbdən* Cənnətə daxil olmayan bəndə bədbəxt olsun!" Mən də: "Amin!" dedim. Üçüncü pillədə o: "Sən yad

[1] Sunən Əbu Davud, 4856; Səhih əl-Cami, 6043.

edildiyin zaman sənə salavat gətirməyən bəndə bədbəxt olsun!" dedi, mən də: "Amin!" dedim."[1]

Peyğəmbərə ﷺ salavat oxumağın fəziləti barədə bir çox hədislər rəvayət edilmişdir:

"Kim mənə bir salavat desə, Allah ona bunun on qat əvəzini verər və onun on günahından keçər."[2]

"Kim mənə bir salavat desə, ona on savab yazılar."[3]

"Bir gün Allahın elçisi ﷺ bir kişinin namazda Allaha həmd etmədən, Peyğəmbərə ﷺ salavat demədən dua etdiyini eşitdi və ona: "Sən tələsdin, ey namaz qılan adam!"– dedi və səhabələrinə dua

---

[1] Buxari, əl-Ədəbul-Mufrad, 644.

[2] Musnəd İmam Əhməd, 3/102; Silsilə əl-Əhadis əs-Səhihə, 829.

[3] Səhih İbn Hibban, 3/102; Silsilə əl-Əhadis əs-Səhihə, 3359.

etməyin qaydasını öyrətdi. Bir müddət sonra Allahın elçisi ﷺ bir adamın namazda dua edərkən Peyğəmbərə ﷺ salavat dediyini eşitdi və ona belə buyurdu: "Ey namaz qılan adam, dua et, duan qəbul olacaq, istə, sənə istədiyin veriləcək!"[1]

[1] Sunən Əbu Davud, 6/18; Mişkatul-Məsabih, 930.

# Mündəricat

Müqəddimə........................................................ 3

1. Qurani Kərim............................................... 9
2. Lə iləhə illəllah .......................................... 17
3. Subhanəllah, əlhəmdulilləh, lə ilahə illəllah, Allahu əkbər ............................. 26
4. Lə hovlə və lə quvvətə illə billəh ............ 37
5. Subhanəllahi və bihəmdih ....................... 49
6. Əstəğfirullahə və ətubu ileyh .................. 56
7. Salavat......................................................... 63